**UOT 7**

***Anar İskəndərov***
***Azərbaycan Dövlət Mədəniyyət və***
***İncəsənət Universitetinin dissertantı***
***Az-1065, Bakı, İnşaatçılar prospekti 39***
***E- mail: iskenderov72@mail.ru***

# QƏDİM TÜRK İNCƏSƏNƏTİNDƏ «HEYVANİ» ÜSLUB

**Xülasə:** Qədim Türk xalqlarının incəsənəti olduqca maraqlı və çox şaxəlidir. Aziyanın bir çox ərazilərində köçəri imperiyalar və böyük xaqanlıqlar qurmuş türk xalqlarının arxeoloji abidələri hələ də yetərincə tədqiq olunmayıb. Bu abidələrə kurqanlar, qaya üstü rəsmlər – petroqliflər, antropomorf daş heykəllər, bəzək əşyaları, torevtika və bədii oyma məmulatları, qədim türklərin yazılı abidələri və hələdə tədqiqatçılar tərəfindən hərtərəfli işıqlandırılılmamış bir çox sənət əsərləri aid edilə bilər. Əlbəttə ki, qədim türk xalqlarının mədəniyyət və incəsənətləri haqqında dolğun informasiyanı biz kurqanlardan tapılmış əşyalar və sənət əsərləri vasitəsi ilə əldə edə bilərik. Böyük kurqanlar onlardan tapılan əşyaların zənginliyi və qəbir ayinlərinin mürəkkəbliyi ilə seçilir.

**Açar sözlər:** Qədim Türklər, kurqanlar, köçərilərin incəsənəti, “heyvani”üslub, hun incəsənəti, təsviri ənənələr, Altay skiflərinin incəsənəti

Qədim türk xalqlarının incəsənəti çox dərin köklərə və qədim tarixə malikdir. O, dünya incəsənəti tarixində yalnız ona məxsus olan üslubu, məzmunu, bədii-estetik obrazlarının özünəməxsus kompozisiya quruluşu ilə fərqlənir. Əlbəttə ki, bu cür unikal xüsusiyyətlərə malik olan incəsənət nümunələri digər qonşu

xalqların incəsənətinə güclü təsir göstərməli idi. Bu gün Avropa və Asiyanın müxtəlif ərazilərində aparılan arxeoloji qazıntılar qədim türk incəsənətinin digər xalqların incəsənətində qoyduğu dərin izləri müşahidə etməyə imkan yaradır. Qədim türk incəsənətinin müxtəlif ərazilərdən tapılmış çox saylı nümunələri onun necə geniş ərazilərə yayıldığına və böyük sivilizasiyaların incəsənətinə necə güclü təsir etməsinə inkar edilməz bir sübutdur. Biz Hun-Ordos incəsənətinin qədim Çinin Tsin, Xan sülalələri dövrünün incəsənətinə, Skif incəsənətinin isə Avropa incəsənətinə təsirini aydın müşahidə edə bilərik.

Müasir dövrümüzdə Qədim Türk incəsənətinin tədqiqi olduqca aktualdır. Qədim Türk xalqlarının incəsənətinin kökləri, onun simvolikası və digər mədəniyyətlərlə əlaqəsi yalnız XIX əsrin əvvəllərindən tədqiq edilməyə başlanılıb və hələ də yetərincə tədqiq olunmayıb.

Qədim türk incəsənətinin nümunələri yüksək bədiiliyə, böyük plastikaya, obraz həllərinin şərti dekorativliyinə baxmayaraq canlı dinamikaya malik olmaları tamaşaçıda olduqca yüksək estetik zövq hissi yaradır.

Qədim Türk köçəri ustalarının yaratdığı əsərlər texnikalarının, janrlarının, materiallarının müxtəliflikləri ilə insanı valeh edir. Qədim türk sənətkarları bir neçə materiallardan istifadə edərək onları bir əşyada uyğunlaşdırmağı və kompozisiyanı estetik tamlığa çatdırmağı xoşlayırdılar. Bu cür texnikada yaradılmış incəsənət əşyalarının hətta fotolarına baxarkən onları yaradan xalqların necə incə zövqə və zəngin təxəyyülə malik olmalarına və bəzi Qərb sənətşünaslarının onlara vurduqları “vəhşi” damğasına heyrətlənməmək mümkün deyil. Qədim türklərin maddi-iqtisadi həyatlarının köçəri maldarlıq üzərində qurulmasına baxmayaraq onların arasında hər zaman silah ustalarının, dəmirçilərin, sənətkarların və bənnaların birlikləri mövcud olmuşdur.

Tədqiqatçı N.Y.Biçurin [1] qeyd edir ki, qədim türklər dünya tarixinin səhnəsinə Mərkəzi Asiyada dəmir çıxarılması istehsalına yiyələnmiş ilk xalq kimi çıxıblar. E.A.Novqorodova, [2] E.N.Çernıx [3] kimi alimlər isə prototürklərin yaşadıqları əraziləri yer üzündə metallurgiyanın yayıldığı ilkin mərkəzlərdən biri sayırlar.

Qədim Türk rəssamlarının ağac, sümük, metal, daş üzərində yaratdıqları relyef və barelyeflər onların bədii oyma, döymə, inkrustasiya, cızma, qravirləmə, tökmə və s. texnikalarına necə dərindən yiyələndiklərini aydın göstərir. Onlar heykəltəraşlıq, torevtika, zərgərlik və aplikasiya janrlarında misilsiz sənət əsərləri yarada bilmişlər və tarixdə özlərinə məxsus üslubları ilə təkrar olunmaz iz qoymuşlar. Qeyd etmək lazımdır ki, bu sənət nümunələrinin bir çoxu dini ritual xarakterli olub xüsusi simvolik mənaya malik olublar və onların tədqiqi dövrümüzə qədər davam edir.

Qədim Türk incəsənətinin ilkin nümunələrinə qədim Ordos və Altay ərazilərində aparılmış qazıntılar zamanı əldə edilmiş müxtəlif materiallarda hazırlanmış olduqca böyük estetik keyfiyyətə malik məişət və bəzək əşyaları aid edilə bilər. Əlbəttə ki, bəzədilmiş məmulatların çoxu utilitar və yaxud ritual funksiyaları yerinə yetirirdi və onları yaradan xalqın etnik və mədəni mənsubiyyətlərindən dolğun məlumatlar verir. Eyni zamanda ritual xarakterli

semantikaya malik məmulatlar, bəzək əşyaları mənsub olduqları xalqın mənəvi dəyərlərini, təfəkkür və dünyagörüşlərini tədqiq etməyə imkan yaradır.

Köçəri türk xalqlarının şifahi bədii irsini adətən mifologiya ilə zəngin olan epos və bahadır nəğmələri təşkil edib. Məhz mifologiya vasitəsi ilə qədim türklər real dünyanın quruluşunu qavramağa və öz hisslərini ifadə etməyə çalışırdılar. Bunları özündə əks etdirərək Sibirdən və Şərqi Türküstandan tutmuş Qazaxıstana, Orta Aziyaya, Macarıstana və Avrasiyanın digər ərazilərinə yayılmış qədim türk incəsənəti onu yaradan xalqın orijinal mədəniyyətinin və təfəkkürünün ifadəsidir.

Tarixlərinin erkən dövrlərindən başlayaraq yazı nümunələrinə malik olmuş Qədim Türklərin bizim dövrümüzə çox az sayda yazılı abidələri çatmışdır. Lakin Qədim Türk incəsənətinin özü də Türk xalqının təfəkkür və mifologiyasını özündə əks etdirərək bir növ informasiya daşıyıcısı rolunda çıxış edir və bizə Qədim Türklərin tarixini, məişətini tədqiq etməyə imkan verir.

Bir çox tədqiqatçılar qədim Hun torevtikasının Skif–Sibir heyvani üslubunun reminissensiyası – yaradıcı təqlidi kimi qəbul edir. Lakin heyvani üslubun yaranması və inkişafında totemizmin – müəyyən yırtıcı və fantastik heyvanların, quşların ilahiləşdirilməsinin təsirini də əsas götürmək olar. Heyvani üslubda yaradılan təsvirlərdə qədim Türk köçəri rəssamlarının heyvanlara, hərəkətlərin dinamikasına, heyvanların mübarizə səhnələrinə olan məhəbbətləri hiss olunur. Tədqiqatçı M.İ.Rostovtsev belə bir qənaətə gəlir ki, qədim Altay və Türkistan əraziləri heyvani üslubun yaranma mərkəzi kimi sayıla bilər. Çünki bu üslubda yaradılmış çoxlu maral və digər heyvan təsvirləri fauna tərkibinə görə daha çox dağlar və meşələr olan ərazilərə aid edilə bilər. M.İ.Rostovtsev [4] qeyd edir: "Heyvani üslubda sənət əsərləri yaradan xalq kəndli və əkinçilər deyil, yalnız köçəri həyat sürən ovçular olmuşlar". Bəzi tədqiqatçılar Skif incəsənətində yaranmış heyvani üsluba yunan və yaxud iran incəsənətinin təsirini təsdiqləməyə çalışırlar. Lakin rus tədqiqatçısı Q.İ.Borovka [5] belə hesab edir ki, yunan incəsənətinin skif incəsənətinə təsiri destruktiv-onun əsasını dağıdan olub. O, öz yazılarında bunu belə qeyd edir: « Yunan incəsənəti skif üslubunda olan təsvirlərə yad və uyğunsuz idi. Skiflərin yunan mədəniyyətinin təsirinə düşməsi ilə yerli heyvani üslub getdikcə solur və tənəzzülə uğrayır». O, iran incəsənətinin də skif heyvani üslubuna təsirini məhz belə neqativ qiymətləndirirdi.

Arxeoloji tapıntılar qədim türklərin öz mifoloji dünya görüşlərini həm şifahi həm də təsvirlər vasitəsi ilə vizual olaraq fiksasiya etdiklərini və bu cür vasitələrlə gələcək nəsillərə ötürdüklərini sübut edir. Təsvirlər qədim dünyanın mifoloji informasiyasını hekayələndirən ikinci simvolik bir dil rolunda çıxış edir. O.M.Freydenberq [6] belə qeyd edir: "Bizim şifahi yaradılmış qədim bir hekayəni mif adlandırmağımız yalnız şərti bir anlamdır. Əslində isə qədim insanın dili, məişəti, onun yaratdığı bütün əşyaları, yəni şüuru və bu şüurun yönəldiyi hər bir şey qədim insanın mifoloji təfəkkürünə dəlalət edir".

Mifoloji mətnlərin təsviri ifadəsinə qədim türklərin geyimlərində, silahlarında, bəzək əşyalarında və müxtəlif əşyaların dekor sistemində rast gəlmək mümkündür.Bir çox tədqiqatçılar zoomorf obrazların qədim türklərdə təfəkkürlərindəki dünya modelinin qurulmasında istifadə etdikləri bir vasitə kimi hələ heyvani üslubun yaranmasından daha əvvəl də mövcud olduğu fikrini irəli

sürürlər. Sonradan isə qədim dünya modelinin təsvirlərdə ifadə edilməsi üçün məhz heyvani üslubun kodu daha uyğun və əlverişli oldu. Dünya modelinin müxtəlif və bir birinə zidd təbəqələrini təcəssüm etdirən heyvan təsvirlərindən ibarət kompozisiyalar qədim türklərin kosmoloji struktur haqqındaki təsəvvürlərini daha dolğun ifadə edə bilirdi. Qədim türklərin mifoloji təsəvvürlərində quşlar səma – dünyanım yuxarı təbəqəsi ilə, otyeyən heyvanlar yer – dünyanın orta təbəqəsi ilə və yırtıcılar yer altı dünya ilə - ölüm və zülməti təmsil edən aşağı təbəqə ilə bağlanılırdı.

Qədim Türk incəsənətinin tədqiqinin aktuallığının bir səbəbi də ondan ibarətdir ki, e.ə.III-II əsrlərdə Hunlar Şərqi və Mərkəzi Asiyanın bir çox etnoslarını birləşdirən qəbilə birləşmələrindən ibarət qüdrətli imperiya yarada bilmişdilər. Lakin Hunların özlərinin yazılı abidələrinin bizə demək olar ki çatmaması, qonşu xalqların Hunlar haqqında olan tarixi məlumatlarının çox bəsit və qərəzli olması qədim Hunların maddi mədəniyyətlərinin, dünya görüşlərinin tədqiqində böyük maneələr yaradır. Lakin Qədim Türk incəsənətinin, torevtikasının öyrənilməsi yalnız Hunların deyil, Mərkəzi Asiyanın bir çox xalqlarının mədəni irslərinin tədqiqinə kömək edə bilər.

Arxeoloji tapıntılar qədim türklərin (burada, hunların) artıq e.ə.VII əsrdə özlərinə məxsus incəsənət üslubuna malik olmalarını təsdiqləyir. Qazıntılar zamanı tapılmış animalistik motivli bürünc düymələr, kəmərlərə bərkidilən heyvan təsvirli lövhələr, dəstəkləri maral və ahu başına çevrilən əşyalar və s. qədim Hun incəsənətinin yüksək estetik keyfiyyətlərindən dolğun məlumat verir.

Uzun müddət ərzində qədim Hunların tarixi və incəsənəti yaxşı tədqiq edilməmiş olaraq qalırdı. Lakin son zamanlar hunların tarixi abidələrinin və incəsənət nümunələrinin təhlili bu qədim xalqın özünəməxsus mədəniyyətini açıqlaya bilmişmışdır. Hunlar Avrasiyanın bütün xalqlarının həyatında böyük rol oynamış ilk böyük Türk dövləti qura bilmişdilər. Bu dövlətin tarixi ardı arası kəsilməyən Hun – Çin müharibələri ilə zəngindir. Eyni zamanda qədim Çin incəsənətində silahların, at yaraq əslahələrinin, kəmərlərin bəzək lövhələrinin və s. əşyaların « heyvani » üslubda işlənilməsi məhz hunların və digər köçəri türk xalqlarının incəsənətinin təsiri nəticəsində meydana gəlmişdir.

Çinin tarixi salnamələrində qədim hunların əcdadlarını Çinin mifik Beş imperatorlarının hakimiyyəti və müharibələri dövrünə (e.ə. III min illiyə) şamil edirlər.

E.ə. XI əsrdə Çin dövləti bir biri ilə döyüşən xırda dövlətlərə bölünür. Bu zaman çinlilər özlərinin döyüşkən köçəri qonşuları hu və yaxud huslulara qarşı müdafiə istehkamları qururlar. İlk dövrlərdə hu adını çinlilər ümumilikdə bütün köçərilərə şamil edirdilər lakin zaman keçdikcə bu ad hun adı ilə qədim türklərin adına çevrilir.

E.ə. IV əsrdə Qədim hunların adı tarixi sənədlərdə qeyd edilir. E.ə. III əsrin ortalarında Hunlar artıq güclü hərbi qüvvəyə malik idilər. Biz bu haqda məlumatlara e.ə. II-I əsrlərdə yaşamış Çin tarixçisi Sıma Tzsyanın tarixi yazılarında rast gələ bilərik.

E.ə. 209 ildə hunlar üzərində hakimiyyətə Maodun (Mete) gəlir. Bir neçə illik ağır mübarizələrdən sonra O, bütün qonşu köçəri qəbilələri özünə tabe edərək

Qüdrətli hun imperiyasının sərhədlərini genişləndirir. Çin üzərində parlaq qələbələr qazanaraq Çin imperiyasını siyasi cəhətdən Hun dövlətindən asılı vəziyyətə salır.

E.ə. 176 ildə Çin imperatoru Vendiyə yazdığı məktubunda Maodun Səmanın mərhəməti ilə ox atıb yay çəkən bütün xalqları öz hakimiyyəti altında bir ailədə birləşdirdiyini və Çinin müttəfiqi Yueccilәri məhv etdiyini qeyd edir.

Hunların imperiyası nəhəng əraziləri əhatə etmişdi. Onun mərkəzi Ordosdan şimalda yerləşən İnşan dağları və hunların tarixi torpaqları Ordos yaylaqları idi. Şərqdə hun dövlətinə Mancurların ərazilərinin böyük hissəsi, şimalda Monqolustan, Cənubi Baykal, Yuxarı və Orta Yenisey əraziləri, qərbdə Xuanxedən başlayaraq Şərqi Türküstan daxil olmaqla bütün ərazilər daxil edilmişdi.

E.ə. I əsrə aid edilən «Duz və dəmir haqqında mübahisə» traktatında qədim hunların öz məişətlərini bəzəməyi xoşlamadıqlarından bəhs edilir. Lakin arxeoloji qazıntılar zamanı əldə edilmiş və hun dövrünə aid edilən əşyalar hunların gümüş, bürünc, sümük və daşdan bəzək əşyaları, mürəkkəb ornamentli keramik qablar yaratdıqları aşkarlanmışdır. Şimali Altayda aparılmış arxeoloji qazıntılar hunların çoxlu sayda müxtəlif növ bəzək əşyaları yaratdıqlarını və dekorativ tətbiqi sənətə böyük həvəslərini nəzərə çarpdırır.

Müasir zamanımızda qədim hun incəsənəti daha çox «Ordos incəsənəti» adı ilə tanınır. Bir çox tədqiqatçılar hun-ordos incəsənətinin skif incəsənəti qədər qədim tarixə malik olmasını təsdiqləyir. İsveç arxeoloqu Arne ordos bürünc əşyalarının e.ə. IV əsrə aid olduğunu qeyd edir. Yapon arxeoloqu Umexara hun incəsənətinin e.ə. V əsrdə Çinin «Döyüşən şahlıqlar» dövrü incəsənət üslubunun formalaşmasına güclü təsir etdiyini söyləyir. İsveçrəli şərqşünas Kalqren isə Çinin bu üslubunun yaranma tarixini e.ə.650 ilə şamil edir. Hun incəsənəti Çinin Orta Cjou dövrü arxaik incəsənətinin «Döyüşən şahlıqlar» dövrü incəsənət üslubuna keçməsinə təkan vermişdir. Qədim hun incəsənətinin nümunələrinin tapıntılarına Baykaldan tutmuş Xebey və Şansinin sərhədlərinə qədər rast gəlinir. Monqolustan ərazisində yerləşən Noin-Uladan tapılmış çox saylı incəsənət nümunələri Hun-Ordos incəsənətinin Çinin e.ə. II-b.e.III əsrin Xan dövrü incəsənətinə təsirini də təsdiqləyir. Xan dövrünün ustaları hun incəsənətinə məxsus animalistik motivləri yaratdıqları bürünc bəzək əşyalarda böyük həvəslə təkrarlayırdılar. Qeyd olunmalıdır ki, qədim türk xalqları onlara qonşu olan dövlətlərlə yalnız müharibələr aparmayıblar. Tarixə nəzər salsaq türk xaqanlıqlarının qəbilə birliklərinin digər qonşu xalqlarla böyük həvəslə həm mədəni həm də ticarət əlaqələrinə girdiklərini müşahidə edə bilərik. Qədim türklər digər xalqların nailiyyətlərini mənimsəyib bacarıqla istifadə edirdilər. Lakin qədim türklər özlərində dünya incəsənətinə və mədəniyyətinə bir çox misilsiz yeniliklər bəxş etmişlər. Hərbdə, dekorativ-tətbiqi sənətdə, zərgərlik və bəzək əşyalarının yaradılmasında, metalların, müxtəlif materialların emalında onlar yeni üsul və vasitələr, texnoloji yeniliklər əldə edə bilmişdilər.

E.ə. I minilliyin ortalarında Avrasiyanın geniş ərazilərində yeni növ təsərrüfat fəaliyyəti – köçəri və yarım köçəri maldarlıq daha çox vüsət almağa başlayır. Bu zaman insanlar onlar üçün yeni olan bir materialın–dəmirin emalı və istifadəsi dövrünə - erkən dəmir dövrünə qədəm qoydular. Tarixdə bu dövr çox

zaman erkən köçərilər dövrü adı ilə də tanmışdır. Avrasiyanın geniş çöllərində müxtəlif və bir birinə çox oxşar mədəniyyətlər formalaşmağa başlayır. Bu mədəniyyətləri yaradan xalqların eyni köklərə malik olmalarına baxmayaraq onların sivilizasiyaları tarixdə daha çox yayıldıqları ərazilərin adları ilə ordos, skif, skif-sibir, altay, pazırık mədəniyyətləri kimi tanınırlar.

Bu mədəniyyətlər haqqında dolğun və əyani məlumatların əldə edilməsi yalnız qəbir üstü tikililər-kurqanlarda aparılmış arxeoloji qazıntıların vasitəsi ilə mümkün olmuşdur. Kurqanların daş örtükləri təbii suları keçirdərək torpağın dərinliklərində qalın buz təbəqələrin yaranmasına şərait yaratmışdı.Bu buz təbəqələrinin sayəsində bir çox arxeoloji tapıntıların –mumiyalanmış cəsədlərin, geyimlərin, parçaların, xalçaların, ağacdan və dəridən hazırlanaraq təbii şəraitdə dövrümüzə çatması mümkün olmayan əşyaların qorunub saxlanılması və bu gün tədqiq edilməsi mümkün olmuşdur.

Qeyd edək ki, artıq XVIII əsrin axırları və XIX əsrin əsrin əvvəllərində qədim türklərin Altaydakı kurqanlarından tapılmış incəsənət əşyalarından ibarət gözəl kolleksiyanın əsasını mühəndis P.K.Frolov [7] tərtib etmişdir. Bu kolleksiyanın daxilində ağacdan olan bədii oyma nümunələri Altay türklərinin digər ərazilərdə məskunlaşmış skiflərlə həm etnik həm də dini yaxınlığa malik olmalarına dəlalət edir. 1865 ildə V.V.Radlov [8] dağlıq Altay ərazilərindəki Katuni çayı yaxınlığında olan Katanda və Şərqi Qazaxıstan sərhədlərinin yaxınlığında yerləşən Buxtarm çayının yuxarı axarlarında yerləşən Berel kurqanlarında arxeoloji tədqiqatlar aparmışdır. Tapıntılar arasında olduqca yaxşı saxlanılmış xəz ilə işlənmiş geyimlər, «katand frakı» adını almış məşhur uzun quyruqlu kürk, məşhur katand xalatı, rəngli aplikasiyalarla bəzədilmiş keçə xalça, üstləri qızıl folqa ilə örtülmüş ağacdan oyma bəzəklər və bir çox başqa unikal tapıntılar türk xalqlarının qədim tarixlərinə və incəsənətlərinə qarşı böyük maraq və hörmət oyatdılar. Əslində V.V.Radlov tərəfindən aparılan bu qazıntılar Altay dağlarında və Avrasiya ərazisində aparılmış ilk sistematik elmi tədqiqat idi və bu sonradan aparılacaq çoxsaylı arxeoloji qazıntıların və müasir tədqiqatların bünövrəsini qoydu.

Altayda aparılmış çox saylı qazıntılar qədim pazırık türklərinin-altay skiflərinin təkrar olunmaz, möhtəşəm incəsənətini dünyaya tanıtdı.

Qədim türk köçərilərinin özlərinin qəbilə başçıları, hökmdarları üçün qurduqları kurqanlarda çoxlu sayda qızıl əşyaların olması diqqəti cəlb edir. Lakin bu cür ehtiram mərhum başçının cəmiyyətdə tutduğu yüksək sosial dərəcəsinə işarədən başqa qədim türklərin öz hökmdarları və başçılarına sakral –müqəddəs anlamın şamil etmələrindən irəli gəlirdi. Qədim türklər öz hökmdarlarının nəsil şəcərələrini Səma və yaxud mifik tanrılarla bağlayırdılar.

Biçurin N.Y. [9] qeyd edir ki, syanbilər öz hökmdarları Tanşixayı səmanın oğlu adlandırır və onun doğulmasını səmadan düşərək anasının bətninə daxil olmuş qar dənəsi ilə bağlayırdılar. Qədim türklərin inancında Səma hökmdarın doğulmasına, həyatına və ona tərəf geri dönməsinə -ölümünə xeyir dua verən bir qüvvə kimi çıxış edir. Bir çox qədim köçəri xalqların eposlarinda hökmdarın ölümü onun ruhunun uçması, səmaya ucalması kimi təsvir edilir. Hökmdarın sakral xarizmatikliyi qədim türklərin təsəvvürlərindəki dünya nizamının və ideal

cəmiyyətdə mövcud olan simvolik quruluşun əksi idi. Əslində hökmdara və başçıya verilən bu cür əhəmiyyətli rol qədim türk köçəri cəmiyyətində mövcud olan dini-mifoloji görüşlərlə bağlı idi.

Hökmdar və başçının dəfn mərasimi prosesində istifadə edilən müəyyən atributlar onun sakral xüsusiyyətlərinə işarə etməli idi.Skif-sibir kurqanlarında bu cür atributlar kimi qızıl əşyalar, maral və qoyun təsvirləri və yaxud qoyun ayağının sümüyü çıxış edirdi. Bütün bunlar qədim türklərdə solyar simvollar kimi çıxış edirdi.

Qədim türklərin qəbilə başçılarının kurqanlarından çox saylı qızıl əşyaların tapılmasının əsas səbəbini qədim türk xalqlarında qızılın günəş işığı və ölümsüzlük rəmzləri rolunda çıxış etməsi təşkil edirdi. Qədim skiflərdə qızıl şah hakimiyyətinin rəmzi sayılırdı. Şahın özü isə günəşin simvolu kimi qəbul edilirdi. Təsadüfi deyil ki, qədim skif şahlarının mifik əcdadının adı Kolaksay – Günəş şah adlanıb. Bolqar tədqiqatçısı İ.Marazov [10] qədim türk kurqanlarından ov səhnələri ilə bəzədilmiş əşyaların çox tapılmasını bu təsvirlərin həm sosial və həm də simvolik mənaya malik olaraq şahların öz nəsil şəcərələrini məhz mifik qəhramanlarla bağlamağa can atmalarından irəli gəldiyini qeyd edir. Yırtıcı və yaxud fantastik heyvanlarla döyüşən qəhraman obrazı şahın əfsanəvi nəslinə və onun bu hakimiyyətə layiq olduğuna işarə edir.

Üç hissədən ibarət kainat obrazı skif cəmiyyətinin də üç hissəyə bölündüyü mülahizəsinə yer verir. Mülahizəyə görə skif şahlarının qalxanlarına bərkidilən vəhşi pişik və maral təsvirli lövhəciklər məhz bu cür emblemlər rolunda çıxış edərək sahiblərinin yüksək sosial səviyyələrinə işarə edirdilər.

Tədqiqatçılar qədim türk heyvani üslubunun təsvir kanonları haqqında müxtəlif mülahizələr yürüdürlər. Bəziləri halqa kimi burulmuş vəhşi pişik təsvirlərində yatmış heyvan obrazını və yaxud ideal formanın təcəssümünü, bəziləri isə sonsuz dinamik hərəkətin simvolunu və ya bir növ in–yanı görürlər. Ayaqları yığılmış maral təsviri qurban gətirilmə ayininin və eyni zamanda Taqar mədəniyyəti insanlarının marala şamil etdikləri günəş tanrısının simvoludur. Qədim türklərin inancında maral yer üzündə işıq və həyatın mənbəyi olmuşdur.

Qeyd edək ki, artıq XIX əsrin axırlarında Minusinsk yaxınlığında yerləşən Taqar adasında otuza yaxın qəbir kurqanlar tədqiq edilmişdi. Enisey çöllərinin skif dövrünə aid edilmiş bu köçərilər arxeoloqlar tərəfindən Taqar mədəniyyəti insanları kimi tanıdılmışdır. E.ə. V əsrdən başlayaraq geyimlərdə, papaq və baş geyimlərində, silahlarda maral təsvirləri və heykəlləri peyda olmağa başlayır. Baş geyimlərinin üstlərini çox zaman atların, qrifonların və yaxud fantastik heyvanların heykəl təsvirləri ilə də bəzəyirdilər. Bu cür təsvirlər öz sahiblərinin köçəri cəmiyyətində tutduqları müxtəlif sosial səviyyələrindən xəbər verirdi. Buna misal olaraq dimdiklərinin arasında maral başını tutmuş qorxunc qartal başını nümunə gətirmək olar. Tədqiqatçılar bu cür üst detallarının hakimiyyət simvolu, dünya ağacı və dünyanın vertikal strukturu ideyasının təcəssümü rolunda çıxış etdiklərini iddia edirlər.

Bir çox tədqiqatçıların ümumi fikrinə görə kurqanlardan tapılmış və heyvani üslubda hazırlanmış bir çox əşyalar qəbir kultu və ölüm ayinləri ilə bağlıdır, onlardakı obrazlar isə sakral mənaya malikdirlər. Qədim türk

incəsənətinin obrazları və kompozisiyaları bütün köçəri cəmiyyətinə aydın olan ideya məzmununa malik idi. Bu lakonik obrazlar eyni zamanda çoxmənalılığa malik olaraq özlərində qədim türk dünyasının mürəkkəb quruluşunu əks etdirirdilər.

Buna misal olaraq Balqazın kurqanından tapılmış ov kompozisiyasını nümunə gətirmək olar. Bəzi tədqiqatçıların mülahizələrinə görə vəhşi donuz ovu səhnəsini əks etdirən bu kompozisiyada qədim köçərilərin hansısa naməlum bir mifi əks olunub. Buna kompozisiyanın bəzi detallarının Qədim Pazırık xalçasının səhnələri ilə və atlı fiqurların həm geyim və yaraq əslahələrinin həm də etnik oxşarlıqlarını misal gətirmək olar.

Qədim türk incəsənətinin bədii üslubunun elementləri asanlıqla tanınır. Bu üsluba sanki sıçrayışda donmuş heyvanların zərif təsvirləri, ov səhvələri və bir birini parçalayan heyvanların kompozisiyalarına ekspressiya və gərgin dramatizm dolğunluğu xasdır. Təsvirlərə məxsus dinamizm və gərginlik bir tərəfdən qədim türklərin yaşamaq üçün məcbur olaraq daim apardıqları mübarizədən, digər tərəfdən isə onların həyat və təbiət haqqında olan düşüncələrindən irəli gəlirdi.

Skif incəsənəti öz gələcək inkişafında çətin və mürəkkəb yollardan keçmişdir. Heyvani üslubdan antropomorf obrazlara və ornamentalizmə keçərək o bütün türk xalqlarının incəsənətində dərin iz qoymuşdur. Rus tədqiqatçısı D.Q.Savinov [11] belə qeyd edir: “ Erkən köçəri xalqların dövrü Skif – Sibir « heyvani üslub » süjetlərinin istifadəsinə və bürünc metalının emalına əsaslanaraq özünəməxsus və təkrar olunmaz maddi mədəniyyət dünyası yarada bilmişdi. Eyni zamanda maddi dünyanın və incəsənətin bir sıra predmetləri erkən köçərilər dövründə yaranaraq sonralar da mühüm dəyişikliklərə uğramayaraq erkən orta əsrlər dövrünün mədəniyyətində özünəməxsus yer tutmuşdu “.

Qədim türk heyvani üslubu Orta Avropadan Çinə qədər nəhəng ərazilərdə olduqca geniş yayılmışdır. Yayıldığı hər bölgə və ərazidə ona yalnız bu ərazilərə məxsus müəyyən cəhətlər əlavə olunurdu. Lakin bütün bu əlavələr təsvirlərin ümumi motivlərində və detallarda əsas üslubun güclü təsirindən azad ola bilmirdi.

## Ədəbiyyat:


1. . Бичурин Н.Я. Ук. соч., т. I, səh. 221, 228.
2. Новгородова Э. А. Древняя Монголия. М.: Наука. Главная редакция восточной литературы, 1989. səh. 76
3. Черных Е.Н., Кузьминых С.В.. Древняя металлургия Северной Евразии (сейминско-турбинский феномен),М.1989, səh.254-255).
4. Ильинская В.А.. Современное состояние проблемы скифского звериного стиля.// Скифо-сибирский звериный стиль в искусстве народов Евразии. М.: 1976.səh.10-11. M. Rostovtzeff. The Animal Style..., səh. 66-67.
5. Ильинская В.А.. Современное состояние проблемы скифского звериного стиля.// Скифо-сибирский звериный стиль в искусстве народов Евразии. М.: 1976.səh.11-12. G. Borovka. Scythian Art London, 1929. səh. 69.

6. Фрейденберг О.М.. Миф и литература древности. 2-е изд., испр. и доп. М.: Издательская фирма «Восточная литература» РАН, 1998. Лекция IV. səh. 35
7. Виргинский В.С. Пётр Козьмич Фролов. М., 1968, səh. 153. Э.Г. Муральт, 1853, səh. 200-210.
8. Радлов В.В., Из Сибири. 1989, səh. 410–449.
9. Бичурин Н.Я. (Иакинф). Собрание сведений о народах, обитавших в Средней Азии в древние времена. Т. I. М.; Л., 1950. səh. 154.
10. Маразов И.. Фракийское золото из Болгарии: Ожившие легенды. — М.: Кучково поле, 2013. «Царская идеология и искусство фракийцев». səh. 22.
11. Савинов Д.Г. Древне тюркские племена в зеркале археологии //Кляшт орный С.Г . , Савинов Д.Г . 2005 : Степные империи древней Евразии. səh. 186 – 187.

**Анар Искендеров**

**“Звериный” стиль в искусстве древнетюркских народов**

**Резюме**

Искусство древнетюркских народов очень интересна и многогранна. Археологические памятники тюркских народов создавших великие каганаты и кочевые империи во многих частях Азии до сих пор полностью не исследованы. К этим памятникам могут быть отнесены курганы, наскальные рисунки – петроглифы, антропоморфные каменные изваяния, украшения, торевтика, изделия художественной резьбы, памятники древнетюркского письма и ещё много произведений искусств, не исследованных исследователями искусств. Конечно же, достоверную информацию о культуре и искусстве древнетюркских народов мы можем получить при помощи предметов и произведений искусств, найденных в курганах. Среди найденных предметов можно встретить неповторимые произведения искусства, которые могут донести до нас полноценную информацию о быте, искусстве и мифологическом воззрении древних тюрков,

**Ключевые слова:** древние тюрки, курганы, искусство кочевников, звериный стиль, хуннское искусство, изобразительная традиция, искусство Алтайских скифов.

**Anar Iskenderov**

**“Animal” style in the art of ancient turkic peoples**

**Summary**

The art of the ancient Turkic people is very interesting and multisided. The archeological monuments of Turkic people built by the nomadic empires and great khanates in the territories of Asia aren’t still presented fully. Mounds rock paintings – petroglyphs, anthropomorphic monuments, decorations, toreutic and carved products, ancient Turks manuscripts and a lot of works aren’t explored by

art researchers. Surely we can get the full information about ancient Turkic peoples culture and art by means of things and works found in the mounds. Among the found things it's possible to meet unique works of art that present a full information about ancient Turkic culture and life, mythological notion.

**Keywords:** ancient Turks, barrows, the art of the nomads, animal style, Hun art, fine tradition, art of the Altai Scythians.

**Məqalənin redaksiyaya daxil olma tarixi: 20.02. 2018 Məqalənin təkrar işlənməyə göndərilmə tarixi: 27.02.2018Məqalənin çapa qəbul olunma tarixi: 16.04.2018**
**Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı: professor Arif Əzizov**
**ADMİU-nun Elmi Şurasının 06 iyul 2018-ci il, 09 saylı qərarı ilə çap olunur**